# Türkün ayağa qalxmağı da əzəmətlidir

*İki il bundan əvvəl fevral ayının 6-da sanki dünya məhvərindən qopmuşdu, torpaq ayaqlar altından qaçmış, yalvarışlar göyə yüksəlmişdi, qardaş Türkiyə amansız bir təbii fəlakətdən sarsılmışdı. 6 fevral tarixi kədərin, çarəsizliyin, ümidin, qəzəbin və həmrəylik hissinin eyni anda duyulduğu dönüş nöqtəsinə çevrildi.*

Qışın soyuğunda, şaxtasında insanlara hər cür yardımlar göstərildi, yaralılar xəstəxanalara daşındı, dağıntılar altında qalanların xilas edilməsi üçün axtarış-xilasetmə işlərinə başlanıldı. 2023-cü il fevralın 6-da mərkəzi Kahramanmaraş olmaqla Türkiyədə baş verən 7.7 və 7.6 bal gücündəki dağıdıcı zəlzələdə 53 min 537 nəfər həyatını itirdi, 107 min 213 nəfər isə müxtəlif bədən xəsarətləri aldı. 500 atom bombası gücündə olan zəlzələlər nəticəsində 200 mindən çox binaya ciddi ziyan dəydi, 38 min 901 bina dağıldı. Şəhərləri, kəndləri yerlə-yeksan edən yeraltı təkanların gücündən Hatayda yer səthində 400 metr uzunluğunda nəhəng çat meydana gəldi, Qaziantepdə iki təpə birləşdi, Nurdağı vilayətində bir kənd iki hissəyə ayrıldı, Kahramanmaraşın Çiğli kəndi 6,5, Değirmenkaya kəndi isə 6 metr sürüşdü. Rəqəmlər nə qədər qorxunc olsa da, Türkiyə tək ürək kimi döyündü, bir əli fəlakətin nəticələrini aradan qaldırmaq üçün mübarizə apardı, fədakarlıq göstərdi, digər əli isə yaraları sardı, sarsıntı keçirən insanlara şəfqət göstərdi. Təbii fəlakət bölgəsinə 650 min nəfərlik işçi qüvvəsi cəlb olundu. Onlardan 11 min 488-i beynəlxalq olmaqla 35 min 250-si axtarış-xilasetmə, 142 mini isə təhlükəsizlik işçisi idi. Dağıntıların aradan qaldırılması və insanların xilas edilməsi üçün 20 min avtomobil və tikinti texnikası, 141 helikopter, 182 təyyarə və 23 gəmi ayrıldı. İlkin mərhələdə bölgəyə bir milyon çadır çatdırıldı ki, bu da təxminən 2,5 milyon zərərçəkənin müvəqqəti sığınmasına imkan yaratdı. Zəlzələ bölgəsindən 3 milyon 549 min nəfər təxliyə edildi.

Fəlakətin miqyası çox böyük idi, 11 vilayət, 124 rayon, 6929 kənd və məhəllə olmaqla 120 min kvadratkilometr əraziyə və 14 milyon insana təsir edən bu zəlzələ insan itkisi və əhatə etdiyi ərazi baxımından dünya üzrə ən dağıdıcı təbii fəlakətlər siyahısına daxil oldu. Türk dövləti, qardaşlarımız, başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla bir yumruq kimi birləşib faciənin nəticələrinin aradan qaldırılması üçün gecə-gündüz demədən çalışdılar.

**(davamı 4-cü səhifədə)**







(əvvəli 1-ci səhifədə)

Bu dövrdə "Türk Hava Yolları"nın qəhrəman pilotları 13 min 701 uçuş edərək 2 milyondan çox zərərçəkəni daşıdı, zəlzələ bölgəsinə 32 min 770 ton yardım materialı çatdırdılar. Daha sonra zəlzələyə davamlı ərazilər müəyyən edilərək bu ərazilərdə 414 konteyner şəhəri yaradıldı. 690 min 644 nəfər 215 min 188 konteyner evində məskunlaşdı. Türkiyə bu fəlakətin qarşısında tək qalmadı, dünyanın 90 ölkəsindən xilasedicilər axtarış-xilasetmə işlərinə qoşuldular. Zəlzələnin ilk saatlarından isə Azərbaycan ayağa qalxdı, fəlakətlə üzləşən qardaşlarımızın yardımına tələsdi.

Qardaş Türkiyənin yanında dayandıq, bir yumruq kimi birləşib, bu faciəni qardaş faciəsi yox, öz faciəmiz kimi qəbul etdik. Doğmalarını itirmiş insanlar kimi göz yaşları axıtdıq. Zəlzələ müharibəyə bənzəyir, hər ikisi fəlakətdir və hər ikisi itkilərə, faciələrə səbəb olur, insan taleləri yarıda qırılır, ocaqlar sönür, ümidlər yaralanır. Buna baxmayaraq, hər ikisi ölkə, xalq üçün böyük sınaqdır. Azərbaycan isə yaxşı gündə də, yaman gündə də öz qardaşının yanındadır. Əsl qardaşlığın düsturu da elə budur, böyük türk xalqı bu fəlakətin yaralarını sardı, dağılan şəhərlər, kəndlər yenidən quruldu. Təbii fəlakətin ilk saatlarında dövlətimizin başçısı İlham Əliyevin göstərişi ilə xilasedicilər, həkimlər zəlzələ zonalarına göndərildilər, orada səyyar hərbi hospitallar quraşdırıldı, zərərçəkənlərə yardımlar yola salındı. Bir millət, iki dövlətin bütün qurumları əlaqəli şəkildə insanların xilas edilməsinə, dağıntıların aradan qaldırılmasına, yaralılara tibbi xidmət göstərilməsinə çalışdılar. Xeyirxahlıq missiyası ilə dünyada tanınan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva türk xalqına başsağlığı verdi və onun təşəbbüsü ilə tələb olunan ən zəruri dərman preparatlarının, isti geyimlərin, ərzaq məhsullarının, sobaların, generatorların zəlzələ bölgəsinə çatdırılması üçün maşın karvanı yola salındı. Mehriban xanım Əliyevanın ifadə etdiyi kimi, Azərbaycan xalqı hər zaman birlik və həmrəylik nümayiş etdirir, bir-birinə kömək etməyə hazır olmaq, əl-ələ verərək çətinliklərdən və sınaqlardan birlikdə üzüağ çıxmaq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir. Bu, həssas məqamda xalqın bütövlüyü, birliyi və bu həmrəylikdən doğan gücün ifadəsidir. Mehriban Əliyevanın Türkiyədəki zəlzələdən zərərçəkənlərə humanitar yardımla bağlı paylaşımları Azərbaycanın birinci xanımının insansevərliyini, mərhəmətini və şəfqətini, bu məsələyə həssas yanaşmasını göstərdi. Azərbaycan xalqı ayağa qalxaraq qardaş ölkəyə yardım etmək üçün birlik nümayiş etdirirdi. Bakı şəhərinin bir neçə guşəsində yardımtoplama məntəqələrində könüllülər, qadınlar, gənclər gecə-gündüz çalışaraq imdad gözləyən qardaşlarımıza hər cür məmulatlar göndərirdilər. Ərzaq bağlamaları, geyimləri, yorğan-döşəyi, ayaqqabıları və digər zəruri əşyaları toplama məntəqələrinə daşıyanların ardı-arası kəsilmirdi, yaşlı bir qadının dediyi kimi, qardaş-bacılarımız soyuqda, şaxtada qaldığı bir vaxtda biz burada necə yata bilərik, ağrımızı, kədərimizi bir yerdə çəkməliyik.

Bütün bölgələrdə əhali qardaş Türkiyəyə yardım etmək üçün ayağa qalxıb, kimin gücü nəyə çatırsa, onu əsirgəmirdi, evinin ən gözəl əşyalarını toplama məntəqəsinə gətirirdi. Ağdam rayonunda da insanlar ən zəruri geyim və ərzaq məhsullarından ibarət olan bağlamaları təhvil verir, hətta bəzi ağdamlılar öz şəxsi maşınları ilə yardımları Bakı şəhərindəki toplama məntəqələrinə aparırdılar. Bu, qardaş həmrəyliyi idi. 1993-cü ilin iyul ayında Ağdam rayonu Ermənistan tərəfindən işğala məruz qalanda on minlərlə ağdamlı evindən məhrum oldu, əyinlərindəki paltardan başqa heç nə götürə bilməyən insanlar humanitar fəlakətlə üzləşdilər. Həmin ağır günlərdə ilk harayımıza çatan Türk Qızıl Ay təşkilatı böyük bir ərazidə çadır düşərgəsi quraşdırdı, keçmiş məcburi köçkünləri geyim və ərzaqla təmin etdi, yardıma möhtac qalan ailələrin yanında dayandı. Acıları birlikdə çəkən qardaşlarımız heç kəsin kənarda qalmasına yol vermirdilər. Yardım gətirən TIR-ların üzərinə yazılmış "Türk xalqından qardaş Azərbaycan xalqına humanitar yardım" sözləri erməni işğalına ürcah olan hər kəsin ocağının yanmasına, çırağının sönməməsinə səbəb oldu. Türkiyənin köməyi və mənəvi dayağı ilə böyük bir el yenidən ayağa qalxdı. 33 il əvvəl türk qardaşlarının köməyini minnətdarlıqla xatırlayan həmin insanlar deyirdilər ki, malımız, mülkümüz qardaşlarımıza qurbandır, canımızı belə əsirgəmərik, icazə versələr, elliklə köməyə gedərik. Həyatın sərt üzü iki qardaş arasındakı bağları daha da möhkəmləndirdi, birliyimizi daha da sarsılmaz etdi, dağıntılar altından çıxarılan hər uşağın gözlərinə həyəcansız baxmaq olmurdu, göz yaşlarımız qurumurdu, ruhumuzla, varlığımızla onların yanındaydıq. Möhkəm bağlar, qırılmaz tellər, tarixin gərdişi bir millət iki dövlətin əzəmətini, qürurunu, əyilməzliyini bütün dünyaya nümayiş etdirdi. Ölkəmizin hər yerində olduğu kimi, Qarabağ və Şərqi Zəngəzur əhalisi də zəlzələdən zərərçəkən qardaş və bacılarına yardım göstərdi. Füzuli, Xocavənd, Laçın, Cəbrayıl, Qubadlı, Ağdam, Zəngilan və Ağcabədi rayonlarından zəlzələdən zərərçəkənlərə onlarla TIR yardım göndərildi.




Təbii fəlakətin ilk saatlarında Prezident İlham Əliyev qardaş dövlətin başçısı Rəcəb Tayyib Ərdoğana zəng edərək dərin hüznlə başsağlığı verdi və bildirdi ki, Azərbaycan Türkiyənin yanındadır, acılarımız da ağrılarımız da birdir, fəlakət hər bir azərbaycanlının qəlbini sızıldadır. Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Azərbaycanın 17 fevral tarixinədək Türkiyəyə göndərdiyi humanitar yardımın həcmi açıqlanıb. Qeyd edilib ki, humanitar yardım Türkiyəyə 15 təyyarə və 350 yük avtomobili vasitəsilə çatdırılıb. Humanitar yardım 867 xilasetmə və tibbi personal, 2 ədəd mobil səhra hospitalı, 4873 çadır, 4 səhra mətbəxi, 861 generator, 221 512 ədəd zəruri ləvazimat və məhsul, 302 034 isti geyim, 693 756 dərman və tibbi ləvazimat, 12 505 qızdırıcı və texniki avadanlıq, 21 367 000 AZN daxildir. Azərbaycan ilə Türkiyə arasında qardaşlığın böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr. Düşmənlər əsrlər boyu qardaşları bir-birindən ayıra bilməyiblər. Bu qardaşlığın kökləri çox dərinlikdədir, o qədər qırılmaz tellərlə bir-birinə bağlıdır ki, dövranın heç bir gərdişi onu poza bilməyib, onlar zamanın ən çətin sınağından şərəflə çıxıblar. Yaxşı bir el məsəlində deyildiyi kimi, dar gündə qardaş qardaşa arxadır, dayaqdır. Prezident İlham Əliyev fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olub, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib. Dövlətimizin başçısının - "Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir. Əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq. Ancaq bu, inanılmaz dərəcədə böyük faciədir. Hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır" - sözləri xalqımızın döyünən nəbzi kimi çox qiymətli və çox dəyərlidir.

Dövlət başçısının qərarı ilə Türkiyənin Kahramanmaraş vilayətində "Azərbaycan məhəlləsi" inşa olunur. Yaşayış məhəlləsinin ümumi sahəsi 32 hektar təşkil edir. Layihəyə əsasən məhəllə yaşayış binaları, ibtidai məktəb və uşaq bağçası, mədəniyyət mərkəzindən ibarətdir. Yaşayış məhəlləsində 71 yaşayış binası inşa olunur ki, onların böyük əksəriyyətinin tikintisi başa çatdırılıb. Bu binalarda 2, 3 və 4 otaqlı 1323 mənzil olacaq. Eyni zamanda həmin ərazidə məskunlaşacaq sakinlərin iş yerləri ilə təmin olunması məqsədilə yaşayış binalarında 799 qeyri-yaşayış (ticarət) obyekti istifadəyə veriləcək. Layihənin 100 milyon ABŞ dolları məbləğində hissəsi Azərbaycan Hökuməti tərəfindən ayrılıb və icraçı qurum Mənzil İnşaatı Dövlət Agentliyidir. Yaşayış məhəlləsində yerləşən ibtidai məktəb və uşaq bağçasının, Baş plan üzrə 11 və 12-ci



məhəllənin tikintisinə başlanılıb. İki məhəllədə ümumilikdə 16 yaşayış binası olacaq. 4 mərtəbəli binalarda ümumilikdə 276 mənzil, 244 qeyri-yaşayış obyekti olacaq.

Bu qardaşlığın kökləri çox dərindir, o qədər qırılmaz tellərlə bir-birinə bağlıdır ki, dövranın heç bir gərdişi onu poza bilməyib, onlar zamanın ən çətin sınağından şərəflə çıxıblar. Ölkə başçısından tutmuş ən sadə vətəndaşa qədər hamı səfərbər oldu, dar günlərdə qardaşlarımızın acısına şərik olduq, göz yaşlarımızı birgə sildik, türkün yıxılmağı da, ayağa qalxmağı da çox əzəmətlidir.

**Salman ALIOĞLU,**
**"Respublika".**